# Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Mənzil-kommunal siyasəti şöbəsinin ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin (bundan sonra - Nazirlik) aparatının struktur bölməsi olan Mənzil-kommunal siyasəti şöbəsi (bundan sonra - şöbə) bu Əsasnamə ilə verilən səlahiyyətlər çərçivəsində mənzil-kommunal təsərrüfatı sahələrində dövlət siyasəti və tənzimlənməsi ilə bağlı işlərin təşkilini və icrasını həyata keçirir.

1.2. Şöbə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında" Qanununu və digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"ni, digər qanunvericilik aktlarını, Nazirliyin Kollegiya qərarlarını, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin (bundan sonra - nazir) əmr və sərəncamlarını (bundan sonra - təşkilati-sərəncamverici sənədlər) və bu Əsasnaməni rəhbər tutur.

1.3. Şöbə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Nazirliyin aparatının bölmələri, strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki digər qurumlar (bundan sonra - Nazirliyin strukturları), təsisçisi olduğu, səhmlərinin saxlanması və ya idarə olunması Nazirliyə həvalə edilmiş hüquqi şəxslər, eləcə də mərkəzi və yerli icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Şöbənin fəaliyyət istiqamətləri

2.0. Şöbə aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

2.0.1. mənzil-kommunal təsərrüfatı sahələrində dövlət siyasətinin formalaşmasında və həyata keçirilməsində iştirak edir;

2.0.2. mənzil-kommunal təsərrüfatı sahələrində inkişaf konsepsiyasının, dövlət proqramlarının və qanunvericilik aktlarının layihələrinin işlənib hazırlanmasını və həyata keçirilməsini təmin edir;

2.0.3. müvafiq sahənin inkişafını təmin edir;

2.0.4. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## 3. Şöbənin vəzifələri

3.0. Bu Əsasnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq, şöbənin vəzifələri aşağıdakılardır:

3.0.1. mənzil-kommunal təsərrüfatı sahələrində dövlət siyasətinin və tənzimlənməsinin həyata keçirilməsində iştirak etmək;

3.0.2. mənzil-kommunal təsərrüfatı sahələrində islahatların istiqamətlərinin işlənib hazırlanmasını və həyata keçirilməsini təmin etmək;

3.0.3. mənzil-kommunal təsərrüfatı sahələrində həyata keçirilən işlərin icra vəziyyətinin monitorinqini aparmaq;

3.0.4. mənzil-kommunal təsərrüfatı sahələrində inkişaf konsepsiyasının, dövlət proqramlarının və qanunvericilik aktlarının layihələrinin hazırlanmasını və həyata keçirilməsini təmin etmək;

3.0.5. mənzil-kommunal təsərrüfatı sahələrində icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının, kommunal xidmətləri göstərən təsərrüfat subyektlərinin fəaliyyətlərini əlaqələndirmək;

3.0.6. digər dövlət orqanları tərəfindən mənzil-kommunal təsərrüfatı sahələrində hazırlanmış qanunvericilik aktlarının layihələrinə rəy vermək;

3.0.7. mənzil-kommunal təsərrüfatı sahələri üzrə təşkilati-sərəncamverici sənədlərin layihələrini hazırlamaq, Nazirliyin strukturları tərəfindən hazırlanmış belə layihələrə dair rəy və təkliflər vermək;

3.0.8. mənzil-kommunal təsərrüfatı sahələrində xidmətlərin səviyyəsinin yüksəldilməsi və əhalinin kommunal xidmətlərlə təminatının yaxşılaşdırılmasına yönəlmiş tədbirlərin hazırlanmasına və həyata keçirilməsinə dair təkliflər hazırlamaq,

habelə mənzil-kommunal təsərrüfatı sahələrinin mövcud vəziyyətini araşdırmaq, hesabatlar almaq və müvafiq tədbirlər görmək;

3.0.9. qanunvericilik aktlarında və dövlət proqramlarında mənzil-kommunal təsərrüfatı sahələrində Nazirliyə həvalə edilmiş tədbirlərin, habelə təşkilati-sərəncamverici sənədlərdə verilmiş tapşırıqların həyata keçirilməsini təmin etmək;

3.0.10. mənzil-kommunal təsərrüfatı sahələrinin inkişafının təmin edilməsi məqsədilə investisiyaların cəlb olunması və investisiya layihələrinin hazırlanması, qiymətləndirilməsi və həyata keçirilməsində iştirak etmək;

3.0.11. dövlət büdcəsinin formalaşdırılması üçün sosial-iqtisadi inkişaf konsepsiyasının proqnoz göstəricilərinin hazırlanmasında aidiyyəti üzrə iştirak etmək;

3.0.12. mənzil-kommunal təsərrüfatı sahələrində islahatların həyata keçirilməsi, kommunal infrastrukturun yaxşılaşdırılması və bazar iqtisadiyyatının tələblərinə uyğun xidmətlərin təşkilinə dair təkliflər hazırlamaq;

3.0.13. dövlət, məhkəmə, yerli özünüidarəetmə orqanları, müəssisə və təşkilatlar, beynəlxalq və qeyri hökumət təşkilatları, hüquqi və fiziki şəxslər tərəfindən Nazirliyə ünvanlanmış və icrası şöbəyə tapşırılmış müraciətlərə qanunvericiliklə müəyyən olunmuş qaydada baxılmasını və müvafiq tədbirlərin görülməsini təmin etmək;

3.0.14. mənzil-kommunal təsərrüfatı sahələrinə aid xidmətlərin tariflərinin və məhsulların qiymətlərinin səviyyəsini təhlil etmək, onların tənzimlənməsi məqsədilə əhalinin sosial vəziyyəti nəzərə alınmaqla təkliflər hazırlamaq;

3.0.15. yaşayış sahələrinin, o cümlədən, çoxmənzilli binalarda ümumi mülkiyyətin qorunması və yararlı vəziyyətdə saxlanılmasına dair tələblərin müəyyən edilməsi ilə bağlı təkliflər hazırlamaq;

3.0.16. yaşayış sahəsinə və kommunal xidmətlərə görə ödənişin strukturunun, hesablanması və ödənilməsi qaydasının müəyyən olunmasında iştirak etmək;

3.0.17. dövlət, bələdiyyə və özəl mənzil fondunun yaşayış sahələrindən istifadəyə və onların saxlanmasına, müəyyən edilmiş sanitariya və texniki norma və qaydalara, qanunvericiliyin digər tələblərinə uyğunluğuna nəzarətin həyata keçirilməsində iştirak etmək;

3.0.18. yaşayış sahələrindən istifadə qaydalarının, dövlət mənzil fondunun yaşayış sahələri ilə təmin edilmə məqsədləri üçün yaşayış sahəsinin uçot normasının, habelə mənzil mülkiyyətçiləri müştərək cəmiyyətlərinin təşkili və fəaliyyət qaydasının müəyyən olunmasında iştirak etmək;

3.0.19. kirayəçilər üçün sosial kirayə və ya kirayə müqavilələri üzrə dövlət mənzil fondunun yaşayış sahəsindən istifadəyə, onun saxlanması və təmirinə görə haqqın müəyyən olunmasında iştirak etmək;

3.0.20. sosial kirayə müqaviləsi üzrə verilən yaşayış sahələrinə ehtiyacı olan vətəndaşların aztəminatlı hesab edilməsi əsaslarının və qaydasının müəyyən olunmasında iştirak etmək;

3.0.21. mənzil-kommunal təsərrüfatı sahələrində qanunvericilik bazasının formalaşdırılması, mütəmadi olaraq təkmilləşdirilməsi və yenilənməsində iştirak etmək;

3.0.22. qanunvericiliklə müəyyən olunmuş qaydada mənzil fondunun dövlət uçotunun aparılması qaydaları, dövlət büdcəsi və büdcədənkənar dövlət fondları hesabına mənzil fondunun bərpası, əsaslı təmiri və inkişaf etdirilməsi ilə bağlı təkliflər hazırlamaq;

3.0.23. ölkə əhalisinin (xüsusilə onun sosial müdafiəyə ehtiyacı olan hissəsinin) mənzil şəraitinin yaxşılaşdırılması ilə bağlı təkliflərin hazırlanmasında iştirak etmək;

3.0.24. qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla mənzil-kommunal təsərrüfatı sahələrində elmi-texniki nailiyyətlərin, məqsədli proqramların tətbiqinə dair təkliflərin hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.0.25. əhalinin, o cümlədən mənzil-kommunal təsərrüfatı sahələrinin iştirakçılarının mənzil-kommunal təsərrüfatı sahələrində maarifləndirilməsi ilə bağlı təkliflərin hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.0.26. fəaliyyət istiqamətləri üzrə vətəndaşlardan, dövlət orqanlarından, idarə, müəssisə və təşkilatlardan daxil olan müraciətlərə və sorğulara qanunvericiliyə uyğun olaraq baxılmasını təmin etmək;

3.0.27. səlahiyyətləri çərçivəsində Nazirliyin inkişaf konsepsiyasının (strateji planının) həyata keçirilməsini təmin etmək;

3.0.28. şöbənin iş planını, fəaliyyəti ilə bağlı hesabatları dövrlər üzrə hazırlamaq;

3.0.29. şöbənin əməkdaşları tərəfindən fəaliyyət prosesində qanunvericiliyə uyğun olaraq xidməti məlumatların, dövlət və kommersiya sirrinin qorunmasını təmin etmək;

3.0.30. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## 4. Şöbənin hüquqları

4.0. Şöbənin vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqları vardır:

4.0.1. fəaliyyət istiqamətləri üzrə Nazirliyin strukturları tərəfindən hazırlanmış qanunvericilik aktlarının, təşkilati-sərəncamverici sənədlərin layihələrinə dair təkliflər hazırlamaq;

4.0.2. fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər, ümumiləşdirmələr, monitorinqlər aparmaq, analitik materiallar hazırlamaq;

4.0.3. aidiyyəti dövlət orqanları tərəfindən mənzil-kommunal təsərrüfatı sahələrində hazırlanmış qanunvericilik aktlarının layihələrinə rəy vermək;

4.0.4. bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar səlahiyyətləri daxilində Nazirliyin strukturlarına müvafiq qaydada sorğular ünvanlamaq və onlardan müvafiq məlumatları (sənədləri) almaq;

4.0.5. ölkədə aparılan sosial-iqtisadi siyasətə uyğun olaraq mənzil-kommunal təsərrüfatı sahələrində xidmətlərin tariflərinin və məhsulların qiymətlərinin müəyyənləşdirilməsində fəaliyyət istiqamətləri üzrə iştirak etmək;

4.0.6. səlahiyyətləri daxilində mənzil-kommunal təsərrüfatı sahələrində investisiya fəaliyyətinin, investisiyaların cəlb edilməsi, qoyulması və təşviqi ilə bağlı tədbirlərin həyata keçirilməsində iştirak etmək;

4.0.7. mənzil-kommunal təsərrüfatı sahələri üzrə dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.0.8. fəaliyyət dairəsinə aid edilmiş məsələlərlə bağlı səlahiyyətləri daxilində Nazirliyi dövlət, yerli özünüidarəetmə orqanlarında, hüquqi və fiziki şəxslər qarşısında təmsil etmək, hüquq və qanuni mənafelərini müdafiə etmək;

4.0.9. Nazirlikdə və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında, fəaliyyətinə aid məsələlər üzrə keçirilən müxtəlif səviyyəli yerli və beynəlxalq tədbirlərdə Nazirliyi təmsil etmək, onların işində iştirak etmək;

4.0.10. qanunvericiliklə müəyyən edilmiş qaydada mənzil-kommunal təsərrüfatı sahələrində müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

4.0.11. dövlət orqanlarına, bələdiyyələrə, fiziki və hüquqi şəxslərə müraciətlərin layihələrini hazırlamaq;

4.0.12. fəaliyyət istiqamətlərinə uyğun xarici dövlətlərin təcrübəsini öyrənmək və bu sahədə fəaliyyətin təkmilləşdirilməsi istiqamətində təkliflər vermək;

4.0.13. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 5. Şöbənin fəaliyyətinin təşkili

5.1. Şöbənin strukturu və əməkdaşlarının sayı nazir tərəfindən müəyyən və təsdiq edilir. Şöbə bilavasitə nazirə tabedir və onun qarşısında hesabat verir. Nazir tərəfindən səlahiyyət verilmiş şəxs istisna olmaqla heç kəs şöbənin fəaliyyətinə müdaxilə edə bilməz.

Şöbənin strukturuna Mənzil siyasəti sektoru, Kommunal siyasəti sektoru və Normativ-metodiki təminat və icmal sektoru daxildir.

5.2. Şöbənin fəaliyyətinə nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şəxs (şöbə müdiri) rəhbərlik edir. Şöbə müdiri şöbəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.3. Şöbə müdirinin nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavin(lər)i vardır. Şöbə müdirinin müavin(lər)i şöbə müdiri tərəfindən on(lar)a həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır(lar).

Şöbə müdiri olmadıqda, onun səlahiyyətlərini müəyyən edilmiş qaydada şöbə müdirinin müavini (müavinlərindən biri) və ya nazir tərəfindən təyin olunmuş digər şəxs həyata keçirir.

5.4. Şöbənin digər əməkdaşları nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

5.5. Şöbə müdiri:

5.5.1. şöbənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. tabeliyində olan sektorlar və əməkdaşlar arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək, icra və xidmət intizamına riayət etmələrinə nəzarət edir;

5.5.3. şöbəyə həvalə edilmiş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər bu kimi sənədləri imzalayır, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə nəzarət edir;

5.5.4. şöbə üzrə Nazirliyin Kollegiyasında müzakirə olunmalı məsələləri müəyyən edir və bu barədə təkliflərini Nazirliyin rəhbərliyinə təqdim edir, şöbə tərəfindən bu Əsasnamənin 1.2-ci bəndində göstərilən qanunvericilik aktlarının və təşkilati-sərəncamverici sənədlərin vaxtında və lazımi səviyyədə icrasını təmin edir;

5.5.5. şöbənin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbeh tədbirləri görülməsi üçün Nazirliyin rəhbərliyinə təqdimatlar verir;

5.5.6. şöbənin vəzifələrini yerinə yetirmək üçün səlahiyyətləri daxilində Nazirliyin digər strukturlarından zəruri məlumat və sənədləri alır;

5.5.7. daxil olan məktub, ərizə, şikayət və təkliflərə qanunvericilikdə nəzərdə tutulmuş qaydada baxılmasını təşkil edir;

5.5.8. şöbədə kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin edir;

5.5.9. şöbəni təmsil edir.

5.6. Şöbənin əməkdaşları bu Əsasnamənin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məsuliyyət daşıyırlar.

## 6. Şöbənin strukturuna daxil olan sektorların vəzifələri

6.1. Mənzil siyasəti sektorunun vəzifələri aşağıdakılardır:

6.1.1. mənzil təsərrüfatı sahəsində dövlət siyasətinin və tənzimlənməsinin, inkişaf konsepsiyasının, dövlət proqramlarının və qanunvericilik aktlarının layihələrinin hazırlanması məqsədilə təkliflər vermək;

6.1.2. ölkənin sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq mənzil təsərrüfatı sahəsində islahatların həyata keçirilməsinə, mənzil fondunun inkişafına dair təkliflər hazırlamaq;

6.1.3. mənzil təsərrüfatı sahəsində xidmətlərin səviyyəsinin yüksəldilməsinə yönəlmiş tədbirlərin hazırlanması və həyata keçirilməsinə dair təkliflər hazırlamaq;

6.1.4. mənzil təsərrüfatı sahəsinin inkişafının təmin edilməsi məqsədilə bu sahəyə investisiyaların cəlb edilməsinə dair təkliflər hazırlamaq;

6.1.5. dövlət büdcəsinin formalaşdırılması üçün sosial-iqtisadi inkişaf konsepsiyasının proqnoz göstəricilərinin hazırlanmasında aidiyyəti üzrə iştirak etmək;

6.1.6. mənzil-kommunal təsərrüfatı sahələrinə aid xidmətlərin tariflərinin və məhsulların qiymətlərinin səviyyəsini təhlil edilməsində iştirak etmək, onların tənzimlənməsi məqsədilə əhalinin sosial vəziyyətini nəzərə alınmaqla təkliflər hazırlamaq;

6.1.7. yaşayış sahələrinin, o cümlədən, çoxmənzilli binalarda ümumi mülkiyyətin qorunması və yararlı vəziyyətdə saxlanılmasına dair tələblərin müəyyən edilməsi ilə bağlı təkliflər hazırlamaq;

6.1.8. mənzil təsərrüfatı sahəsinin mövcud vəziyyətinin araşdırılmasında və monitorinqinin həyata keçirilməsində iştirak etmək;

6.1.9. dövlət, bələdiyyə və özəl mənzil fondunun yaşayış sahələrindən istifadəyə və onların saxlanmasına, bu fondun yaşayış sahələrinin müəyyən edilmiş sanitariya, texniki norma və qaydalara, qanunvericiliyin digər tələblərinə uyğunluğuna nəzarətin həyata keçirilməsinə dair təkliflər hazırlamaq;

6.1.10. yaşayış sahəsinə görə ödənişin strukturunun, bu ödənişin hesablanması və ödənilməsi qaydasının müəyyən olunmasına dair təkliflər hazırlamaq;

6.1.11. dövlət mənzil fondunun yaşayış sahələri ilə təmin edilmə məqsədləri üçün yaşayış sahəsinin uçot normasının müəyyən olunmasına dair təkliflər hazırlamaq;

6.1.12. kirayəçilər üçün sosial kirayə və ya kirayə müqavilələri üzrə dövlət mənzil fondunun yaşayış sahəsindən istifadəyə, onun saxlanması və təmirinə görə haqqın müəyyən olunmasına dair təkliflər hazırlamaq;

6.1.13. qanunvericiliklə müəyyən olunmuş qaydada mənzil fondunun dövlət uçotunun aparılması qaydaları, dövlət büdcəsi və büdcədənkənar dövlət fondları hesabına mənzil fondunun bərpası, əsaslı təmiri və inkişaf etdirilməsi ilə bağlı təkliflər hazırlamaq;

6.1.14. ölkə əhalisinin, o cümlədən müxtəlif əhali qruplarının mənzil şəraitinin yaxşılaşdırılması ilə bağlı təkliflər hazırlamaq;

6.1.15. fəaliyyət istiqamətləri üzrə vətəndaşlardan, dövlət orqanlarından, idarə, müəssisə və təşkilatlardan daxil olan müraciətlərə və sorğulara qanunvericiliyə uyğun olaraq baxılmasını təmin etmək;

6.1.16. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair şöbə müdirinə təkliflər hazırlamaq;

6.1.17. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

6.2. Kommunal siyasəti sektorunun vəzifələri aşağıdakılardır:

6.2.1. kommunal təsərrüfatı sahəsində dövlət siyasətinin və tənzimlənməsinin, inkişaf konsepsiyasının, dövlət proqramlarının və qanunvericilik aktlarının layihələrinin hazırlanması məqsədilə təkliflər vermək;

6.2.2. ölkənin sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq kommunal təsərrüfatı sahəsində islahatların həyata keçirilməsinə, bu sahənin inkişafına dair təkliflər hazırlamaq;

6.2.3. kommunal təsərrüfatı sahəsində xidmətlərin səviyyəsinin yüksəldilməsi və əhalinin kommunal xidmətlərlə təminatının yaxşılaşdırılmasına yönəlmiş tədbirlərin hazırlanmasına və həyata keçirilməsinə dair təkliflər hazırlamaq;

6.2.4. kommunal təsərrüfatı sahəsinin mövcud vəziyyətinin araşdırılmasında və monitorinqinin həyata keçirilməsində iştirak etmək;

6.2.5. kommunal təsərrüfatı sahəsinə aid xidmətlərin tariflərinin və məhsulların qiymətlərinin səviyyəsini təhlil etmək, onların tənzimlənməsi məqsədilə əhalinin sosial vəziyyəti nəzərə alınmaqla təkliflər hazırlamaq;

6.2.6. kommunal təsərrüfatı sahəsinin inkişafının təmin edilməsi məqsədilə investisiyaların cəlb edilməsinə dair təkliflər hazırlamaq;

6.2.7. dövlət büdcəsinin formalaşdırılması üçün sosial-iqtisadi inkişaf konsepsiyasının proqnoz göstəricilərinin hazırlanmasında aidiyyəti üzrə iştirak etmək;

6.2.8. kommunal təsərrüfatı sahəsində fəaliyyət göstərən iri dövlət vergi ödəyicilərinin gəlir və xərclər smetalarının razılaşdırılmasında və icrasına nəzarətin həyata keçirilməsində iştirak etmək;

6.2.9. kommunal təsərrüfatı sahəsində islahatların həyata keçirilməsi, kommunal infrastrukturun yaxşılaşdırılması və bazar iqtisadiyyatının tələblərinə uyğun xidmətlərin təşkilinə dair tədbirlər görülməsinə, habelə məişət tullantılarının idarə olunması ilə bağlı yeni metodların təşkilinə dair təkliflər hazırlamaq;

6.2.10. kommunal təsərrüfatı sahəsində fəaliyyət göstərən müəssisə və təşkilatların işinin nəticələrinin təhlili əsasında onların dayanıqlı fəaliyyətinin təmin edilməsinə dair təkliflər hazırlamaq;

6.2.11. fəaliyyət istiqamətləri üzrə vətəndaşlardan, dövlət orqanlarından, idarə, müəssisə və təşkilatlardan daxil olan müraciətlərə və sorğulara qanunvericiliyə uyğun olaraq baxılmasını təmin etmək;

6.2.12. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair şöbə müdirinə təkliflər hazırlamaq;

6.2.13. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

6.3. Normativ-metodiki təminat və icmal sektorunun vəzifələri aşağıdakılardır:

6.3.1. mənzil-kommunal təsərrüfatı sahələrində dövlət siyasətinin və tənzimlənməsinin, inkişaf konsepsiyasının, dövlət proqramlarının, qanunvericilik aktlarının layihələrinin hazırlanmasını və həyata keçirilməsini təmin etmək;

6.3.2. mənzil-kommunal təsərrüfatı sahələrində icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin əlaqələndirilməsinə dair təkliflər vermək;

6.3.3. zərurət yarandıqda Nazirliyin fəaliyyəti ilə bağlı mülki, idarələrarası və digər xarakterli müqavilələrin hazırlanmasında iştirak etmək,

6.3.4. mənzil-kommunal təsərrüfatı sahələrində qanunvericilik aktlarının, təşkilati-sərəncamverici sənədlərin layihələrini hazırlamaq, digər dövlət orqanları tərəfindən hazırlanmış qanunvericilik aktlarının layihələrinə dair rəy və təkliflər vermək;

6.3.5. qanunvericilik aktlarında və dövlət proqramlarında mənzil-kommunal təsərrüfatı sahələrində Nazirliyə həvalə edilmiş tədbirlərin, habelə təşkilati-sərəncamverici sənədlərdə verilmiş tapşırıqların həyata keçirilməsini təmin etmək;

6.3.6. mənzil-kommunal təsərrüfatı sahələrində qanunvericilik bazasının formalaşdırılması və yenilənməsində iştirak etmək;

6.3.7. qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla müvafiq sahədə elmi-texniki nailiyyətlərin, məqsədli proqramların tətbiqinə dair təkliflərin hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

6.3.8. mənzil-kommunal təsərrüfatı sahələrində fəaliyyəti tənzimləyən qanunvericilik aktlarını təhlil etmək, onların təkmilləşdirilməsinə dair təkliflər hazırlamaq;

6.3.9. mənzil-kommunal təsərrüfatı sahələrində normativ metodiki tənzimlənmənin vəziyyətini təhlil etmək, ümumiləşdirmələr aparmaq, bununla bağlı təkliflər hazırlamaq;

6.3.10. mənzil-kommunal təsərrüfatı sahələrinin mövcud vəziyyətinin araşdırılmasında və monitorinqinin həyata keçirilməsində iştirak etmək;

6.3.11. mənzil-kommunal təsərrüfatı sahələrində qanunvericilik aktlarının siyahısını aparmaq, hüquq ədəbiyyatı, şərhlər və dövri hüquqi nəşrlərin toplanması üçün səlahiyyətləri daxilində zəruri tədbirlər görmək;

6.3.12. mənzil-kommunal təsərrüfatı sahələrinin inkişaf meylləri və istiqamətləri ilə bağlı araşdırmalar aparmaq və analitik hesabatlar hazırlamaq;

6.3.13. fəaliyyət istiqamətləri üzrə vətəndaşlardan, dövlət orqanlarından, idarə, müəssisə və təşkilatlardan daxil olan müraciətlərə və sorğulara qanunvericiliyə uyğun olaraq baxılmasını təmin etmək;

6.3.14. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair şöbə müdirinə təkliflər vermək;

6.3.15. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.